# KORPORATİV MARAQLARIN TOQQUŞMASI HALLARININ TƏNZİMLƏNMƏSİ ÜZRƏ SİYASƏT

**MÜNDƏRİCAT**


**1. ƏSAS TERMİNLƏR, İZAHLAR VƏ ABBREVİATURALAR** ... 3
**2. ÜMUMİ MÜDDƏALAR** ... 5
**3. SİYASƏT** ... 6
**3.1. Tətbiq dairəsi** ... 6
**3.2. Məhdudiyyət** ... 6
**3.3. Tətbiqi** ... 6
**4. MÜNAQİŞƏLƏRİN İDARƏ OLUNMASI ÜSULLARI** ... 8
**4.1. Əlaqəli tərəflərlə əməliyyatlar** ... 8
**4.2. Rəqabət** ... 8
**4.3. Bir neçə müəssisədə rəhbərlik** ... 8
**4.4. Biznes əlaqələri** ... 9
**4.5. Birgə Müəssisə tərəfdaşları** ... 10
**4.6. Təchizatçılar və podratçılar** ... 10
**5. KONFİDENSİALLIQ MÜDDƏALARI** ... 11
**5.1. Konfidensiallığın qorunmasına aid ümumi müddəalar** ... 11
**5.2. Konfidensial məlumatların işlənməsində beynəlxalq təcrübələr** ... 13
**5.3. Məlumatı əldə etmək zərurəti** ... 13
**5.4. "Çin səddi" prinsipi** ... 14
**6. MARAQLARIN TOQQUŞMASININ HƏLLİ** ... 16
**6.1. Həll mexanizmləri** ... 16
**6.2. Siyasətə əməl edilməməsinə görə məsuliyyət** ... 17

## 1. ƏSAS TERMİNLƏR, İZAHLAR VƏ ABBREVİATURALAR

***Şirkət*** – SOCAR-a daxil olan, müxtəlif təşkilati hüquqi formalı hüquqi şəxslər və onun şaquli inteqrasiya olunmuş müəssisələri.

***SOCAR*** – Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti.

***SOCAR-ın asılı şirkəti*** – Nizamnamə kapitalında SOCAR-ın birbaşa olaraq 20%-dən çox paya malik olduğu, məhdud məsuliyyətli cəmiyyət və ya səsvermə hüquqlarının 20%-nin və ya ondan artıq olan hissəsinin SOCAR-a məxsus olduğu, lakin SOCAR-ın müəssisəsi və ya Törəmə müəssisəsi hesab olunmayan səhmdar cəmiyyəti.

***Tətbiq olunan qanunvericilik*** – Azərbaycan Respublikası qanunvericiliyinin qayda və tələbləri, müəyyən hallarla bağlı (məsələn, müəyyən ölkənin ərazisində biznes qurmaq, xarici kontragentlə razılaşmanın şərt və müddəaları və digər) Şirkətə, onun törəmə müəssisələrinə və asılı şirkətlərinə və/yaxud onların İşçilərinə tətbiq olunan beynəlxalq qanunlar, xarici ölkələrin qayda və tələbləri.

***Maraqların toqquşması*** – şirkətlərdən birinin (şaquli inteqrasiya olunmuş və ya SOCAR-ın özü) maraqlarının digər şaquli inteqrasiya olunmuş şirkətlərin, kənar şirkətlərin, məsələn təchizatçılar, istehsalçılar və podratçıların, eləcə də Birgə müəssisənin və Birlik tərəfdaşlarının maraqlarına zidd olması və ya zidd ola bilməsi halları və ya vəziyyətləri və bunların işin düzgün icrasına, o cümlədən qərarın qərəzsiz qəbulu prosesinə təsir etməsi və ya edə bilməsi.

***Kontragent*** **–** Əmək münasibətləri istisna olmaqla, SOCAR-ın hər hansı müqavilə münasibətlərinə daxil olduğu və ya daxil olmaq istədiyi, Azərbaycan Respublikası qanunvericiliyinə əsasən təsis edilmiş hər hansı hüquqi və ya fərdi sahibkar kimi qeydiyyata alınmış hər hansı fiziki şəxs, eləcə də xarici hüquqi və ya fiziki şəxs.

***İşçilər*** **–** Azərbaycan Respublikasının əmək və mülki qanunvericiliyi əsasında SOCAR və ya SOCAR-ın asılı şirkəti və yaxud SOCAR-ın törəmə müəssisəsi tərəfindən işə götürülən fiziki şəxslər.

***Şaquli inteqrasiya olunmuş müəssisə*** **-** SOCAR və onun strukturuna daxil olan müxtəlif təşkilati-hüquqi formaya malik olan hüquqi şəxs(lər).

***Birlik*** **–** Müstəqil təşkilat kimi qalaraq razılaşdırılmış ümumi məqsədləri həyata keçirən iki və ya daha artıq tərəf arasında rəsmi razılaşma.

***Törəmə müəssisə*** **-** Səsvermə hüququna malik səhmlərin 50%-dən çoxunun Şirkətin nəzarətində olduğu hüquqi şəxs.

***Birgə müəssisə*** **-** Xüsusi məqsədə nail olmaq, mülkiyyəti, gəlirləri və riskləri bölüşdürmək üçün resursları birləşdirmək məqsədilə iki və ya daha artıq tərəf arasında təsis edilmiş hüquqi şəxs.

***Struktur bölmə*** **–** SOCAR-ın strukturuna daxil olan şöbə, idarə və departamentlər.

***Müvafiq struktur bölmə*** – SOCAR-ın Prezidentinin əmri ilə müəyyən edilmiş və ona həvalə edilmiş vəzifələri həyata keçirməyi səlahiyyətləndirilən SOCAR-ın struktur bölməsi.

***Məsul Qurum*** – SOCAR-ın Prezidentinin əmri ilə müəyyən edilmiş və ona həvalə edilmiş vəzifələri həyata keçirməyi səlahiyyətləndirilən qurum.

***Üçüncü tərəflər*** – hər hansı fiziki şəxslər (*Şirkətin işçiləri istisna olmaqla*) və hər hansı hüquqi şəxslər (*SOCAR-ın strukturuna daxil olanlar istisna olmaqla*).

## 2. ÜMUMİ MÜDDƏALAR

*Giriş*

Şaquli inteqrasiya olunmuş, müəssisələr üzərində paylı mülkiyyətə malik olan, müxtəlif vəzifələrdə, eləcə də Birgə Müəssisələrin və ya Birliklərin tərəfdaşı kimi çıxış edən SOCAR, istehsal zəncirinin müxtəlif mərhələlərində müxtəlif vəzifələr icra edərək bu cür müəssisələrlə əlaqələr yaradır. Belə ki, SOCAR Şirkətin davamlı uğurunun öz ticarət əməliyyatlarında, eləcə də onun Asılı şirkətləri arasında əməliyyatlarda şəffaflığı təmin edən korporativ standartların və nizam-intizam mexanizmlərindən asılı olduğunu təsdiq edir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, SOCAR Şirkətin şaquli müstəqilliyini qoruyub saxlamağı hədəfləyir və bunun üçün, hüquqi baxımdan konfidensial olan heç bir məlumatın yuxarı və aşağı səviyyələrdə müəssisələr arasında dövr edilməməsini, habelə bu müəssisələr arasında mübahisələrin yaranmasına əsas verən heç bir halın mövcud olmamasını təmin edir.

Hamıya məlumdur ki, hər bir çox müəssisəli şirkətin davamlı və fasiləsiz uğuru üçün başlıca şərt bütün səviyyələrdə bu cür təşkilat üçün icbari olan dayanıqlı və işlənib hazırlanmış korporativ idarəçilik standartlarının mövcudluğudur. Yerli və qlobal biznes icmalarında şəffaflıq məsələlərinə diqqətin artmasını nəzərə alaraq, Şirkət öz korporativ mədəniyyətini təkmilləşdirmək, eləcə də gündəlik əməliyyatlarında Maraqların toqquşmasının qarşısını almaq məqsədilə mövcud siyasətlərini davamlı olaraq yeniləyir. Bu məqsədə nail olmaq üçün, Şirkət SOCAR-da maraqların toqquşmasının qarşısının alınması və aradan qaldırılması məqsədilə hazırkı siyasəti qəbul etmişdir.

SOCAR-ın tətbiq olunan qanunvericiliyin qanun və qaydalarına və öz nizamnaməsinə əməl etməsi ilə yanaşı, hazırkı Siyasət mümkün mübahisələri həll etmək məqsədilə növbəti prinsip və standartları müəyyən edir və təqdim edir, eləcə də Şirkətin biznesinin normal gedişində səmərəlilik və şəffaflığa xidmət edəcək icbari tədbirləri irəli sürür.

Hazırkı Siyasət istehsal zəncirinin istənilən mərhələsində Kontragentlərlə, habelə Şirkətin Şaquli inteqrasiya olunmuş müəssisələri ilə əməliyyatlarda meydana çıxa bilən mövcud və potensial Maraqların toqquşmasının müəyyən edilməsi və idarə olunması üzrə prosedurları əhatə edir. Bununla yanaşı, bu Siyasət hüquqi baxımdan konfidensial olan və kommersiya sirri hesab edilən məlumatın istehsal zəncirində bu müəssisələr arasında açıqlanması və dövr etməsini qadağan edən müddəaları müəyyən etmək üçün nəzərdə tutulur.

Siyasət, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinin, eləcə də insayder əməliyyatları, fidusiar öhdəliklər, kommersiya sirri, şəxsi məlumatlar, konfidensiallıq tələbləri ilə bağlı beynəlxalq qəbul edilmiş təcrübələrin tələblərinə, habelə hazırkı Siyasətin pozulmasına görə məsuliyyət və müvafiq qanunvericilik tələblərinə əsaslanır.

Siyasət, açıq kateqoriyalı sənəddir və SOCAR-ın rəsmi internet səhifəsində dərc olunur.

## 3. SİYASƏT

### 3.1.Tətbiq dairəsi

Hazırkı Siyasət istehsal zəncirinin istənilən mərhələsində Kontragentlərlə, habelə Şirkətin Şaquli inteqrasiya olunmuş müəssisələri ilə əməliyyatlarda meydana çıxa bilən mövcud və potensial Maraqların toqquşmasının müəyyən edilməsi və idarə olunması üzrə prosedurları əhatə edir. Bununla yanaşı, bu Siyasət hüquqi baxımdan konfidensial olan və kommersiya sirri hesab edilən məlumatın istehsal zəncirində bu müəssisələr arasında açıqlanması və dövr etməsini qadağan edən müddəaları müəyyən etmək üçün nəzərdə tutulur.

Siyasət Şirkətə və onun asılı müəssisələrinə tətbiq olunan minimal standartları müəyyən edir. Maraqların toqquşmasının aradan qaldırılması, insayder əməliyyatları və konfidensiallıq prinsipləri ilə bağlı ayrı-ayrı siyasətlər daha sonra Şirkət tərəfindən onun tabe qurumları və ayrı-ayrı biznes istiqamətləri üçün bu Siyasət əsasında, onların bizneslərinin xüsusiyyətlərini və onlara müvafiq ola bilən Maraqların toqquşmasının formalarını nəzərə almaqla işlənib hazırlana bilər.

Siyasətdə əhatə edilməli olan ən mühüm məsələlərə daxildir:

1) Maraqların toqquşmasının nədən ibarət olması barədə məlumat;
2) Maraqların toqquşmasının açıqlanması və hesabat verilməsi prosedurları barədə məlumat;
3) Maraqların toqquşmasının həlli proseduru və hər hansı digər əlaqəli məsələlər.

### 3.2. Məhdudiyyət

Bu Siyasət Şirkətin və onun İşçilərinin davranışı və onlarla bağlı prosedurları tənzimləmir və bununla, İşçilərin maliyyə maraqları ilə əlaqəli məsələləri əhatə etmir. Yuxarıda qeyd olunan məsələlər SOCAR-ın müxtəlif, artıq mövcud olan siyasətləri ilə tam tənzimlənir.

### 3.3.Tətbiqi

Bu Siyasətdə qeyd edilən tələblər SOCAR və onun bütün struktur bölmələri/Törəmə müəssisələri üçün icbari olacaq və təsis olunduqları yurisdiksiyadan asılı olmayaraq, SOCAR-ın digər Asılı Müəssisələrinin əməliyyatları üçün tövsiyə edilir. Tətbiq olunan qanunvericiliklə Siyasət arasında hər hansı uyğunsuzluq olduqda, aşağıdakı tədbirlər görülməlidir:

- Tətbiq olunan qanunvericilik Siyasətə nisbətən İşçilərin davranışı üçün daha ciddi olduqda, bu cür xüsusi halda Məsul Qurum tərəfindən işçilərin Tətbiq olunan qanunvericiliyin normalarına əməl etmələrinə nəzarət edilməlidir;

- Tətbiq olunan qanunvericiliyin İşçilərin davranışı üçün məhdudiyyətləri Siyasət qədər ciddi olmadıqda, o zaman xüsusi halda İşçilər hazırki Siyasətə əməl etməlidirlər, o şərtlə ki, bu, yurisdiksiyanın icbari müddəalarını pozmasın. Bu Siyasətin mümkün pozulma hallarına dair şübhələr və ya məlumatlar olduqda, İşçilər Siyasətin tətbiqi üzrə məsul olan müvafiq struktur bölmə ilə məsləhətləşməlidirlər.

Maraqların toqquşması halları vaxtında müəyyən edilmədikdə, qanun pozuntusuna və SOCAR-ın əməliyyatları və nüfuzuna xələl gəlməsinə səbəb olacaqdır. Bu, günahkar tərəfin hansı şəkildə fayda əldə etməsindən asılı olaraq, müxtəlif sahələrdə pozuntulara gətirib çıxarır. Əksər hallarda, pozuntular rəqabət, kommersiya sirrinin qorunması, korporativ idarəçilik və ya oxşar sahələrdə aşkar edilir.

Maraqların toqquşması nəticələrinin kəskinliyindən asılı olaraq, tətbiq edilən məsuliyyət (sanksiyalar) mülki, intizam, və inzibati məsuliyyətdən cinayət məsulliyətinə qədər fərqli olur.

Maraqların toqquşması həm real, həm də iqtisadi zərər (əldən çıxmış fayda) formasında Şirkətə mühüm ziyan vurur. Şirkətin nüfuzu, bazarda tanınması, xarici ölkələrlə əlaqələri və s. ziyan çəkə bilər. Yuxarıda qeyd edilən ziyan yalnız şirkətin etik uğurlarını deyil, həmçinin maliyyə nəticələrini də təhlükə altına qoyur.

Maliyyə zərərləri şirkətə inamın itməsi nəticəsində xarici, habelə yerli sərmayələrin azalmasından ibarət ola bilər. Bundan başqa, bazarda tanınma aşağı düşdüyü üçün, yüksək ixtisaslı işçi qüvvəsi Şirkəti tərk edir ki, bu da rəqiblərin xeyrinə səbəb ola bilər.

Məhkəmə prosesi həddən artıq çox maliyyə vəsaiti tələb etməklə yanaşı, həmçinin vaxt aparan prosesdir. Uzun müddət davam edən məhkəmə prosesi Şirkətin maliyyə və inzibati resurslarından Şirkətin diqqətini əsas biznes məqsədlərindən problemlərin həllinə tam dəyişməyi tələb edə bilər ki, bu da Şirkəti çox təhlükəli vəziyyətə salır.

## 4. MÜNAQİŞƏLƏRİN İDARƏ OLUNMASI ÜSULLARI

Şirkətin Nizamnaməsinə və mövcud daxili sənədlərə əsasən, bu Siyasət Şirkətin şaquli bütövlüyünü təmin etmək məqsədilə mübahisələrin idarə edilməsi mexanizmlərini təkmilləşdirmək və tənzimləmək üçün nəzərdə tutulur.

### 4.1.Əlaqəli tərəflərlə əməliyyatlar

Fiziki şəxslər arasında, həmçinin bizneslərarası səviyyəsində olan şirkət arası münasibətlər, əməliyyatlar, şirkətdaxili əlaqələr Şirkət tərəfindən diqqətlə yoxlanılır. Hər hansı əməliyyatı icra edərkən, qanunlar və Nizamnamə ilə yanaşı, Şirkət öz müvafiq daxili siyasət və prinsiplərinə də ciddi əməl edir. Əsas məqsəd Maraqlar toqquşmasının qarşısını almaq üçün uyğunluq və tədbirlərin ardıcıllığını təmin etməkdir. Buna nail olmaq məqsədilə aşağıdakı tədbirlər təmin edilməlidir:

1) Şirkət aktivlərinin kənar, eləcə də daxili təhlükələrdən qorunması, mühafizəsi;
2) Bütün hesabatların düzgünlüyü, dəqiq məlumatlar və Şirkətin həqiqi vəziyyətinin əks etdirilməsi;
3) İnsayder əməliyyatları məsələlərinin olmaması;
4) Maraqlar toqquşması siyasətinin qanunvericiliyin müddəalarına zidd olmaması.

Sürətlə dəyişən biznes mühiti və texnologiya qanunvericilikdə mütəmadi dəyişikliyin edilməsi zərurətini yaradır. Hazırki Siyasətə uyğun olaraq, bu cür dəyişikliklər baş verərsə, Məsul Qurum bu cür dəyişiklikləri qəbul etmək üçün SOCAR-ın Prezidentinə müraciət etməli və Siyasətə müvafiq qaydada düzəliş edilməlidir.

### 4.2.Rəqabət

Bununla, Şirkət rəqabət müddəaları ilə bağlı qanunvericiliyə əməl etməsini təsdiq edir. Şaquli inteqrasiya olunmuş şirkətlər qiymətlərin sabitləşdirilməsi, satış, ərazi, mal növləri, eləcə də biznes əməliyyatlarında rəqabətə qarşı təcrübələrin, məsələn insayder əməliyyatların tətbiqi ilə bağlı Tətbiq olunan qanunvericiliyi birbaşa pozmaqla, rəqabəti məhdudlaşdıran məhsul dilerləri və müstəqil təkrar satıcılarla razılaşmaya girməkdən yayınmalıdırlar.

Şirkət öz fəaliyyəti və əməliyyatlarında anti-inhisar və rəqabətin məhdudlaşdırılması üzrə icbari hüquqi müddəalara tam əməl edir. İnsayder əməliyyatları bir tərəfin müxtəlif səbəblərdən ictimaiyyətə açıqlanmayan məlumatlardan istifadəsi nəticəsində fayda əldə etdiyi əməliyyatdır (məlumatın ictimaiyyətə açıqlanmasından əvvəl hər hansı şəxsin onu əldə etməsi). İnsayder əməliyyatları Tətbiq olunan qanunvericiliklə, habelə hazırkı Siyasətlə qadağandır. İnsayder məlumatlarından istifadə edilməməlidir, çünki bu, həmin məlumatlara malik olmayan sərmayədarları əlverişsiz vəziyyətə salır.

### 4.3.Bir neçə müəssisədə rəhbərlik

Müəssisələrin rəhbər işçiləri öz maliyyə öhdəlikləri vasitəsilə vicdanla, Şirkətin maraqlarına ən uyğun

şəkildə hərəkət etməli və Şirkətin biznes məqsədlərinə nail olmasına xidmət etməlidirlər.

İstənilən rəhbər işçi qərarların qəbulu prosesinin şəffaf olmasını və Şirkətin xoş niyyətinin əks edilməsini təmin etməlidir.

Bir neçə müəssisədə rəhbər vəzifə tutan işçilər SOCAR-ın Məsul Qurumunun daxili təsdiqini almalıdırlar. Daha ətraflı təhlil zamanı müvafiq struktur bölmə hər bir xüsusi halı təhlil etməli (araşdırmalı) və potensial risklərin aydın təsbitini əhatə edən nəticəni Məsul Quruma təqdim etməlidir. Müvafiq qiymətləndirmə və araşdırmadan sonra Məsul Qurum öz qərarını elan etməlidir.

### 4.4.Biznes əlaqələri

Şirkət öz biznes tərəfdaşlarından hazırkı Siyasətlə rəhbər tutulması gözlənilən dürüstlük prinsiplərinə əməl etmələrini tələb edir. Bu tələb vasitəçilərə, subpodratçılara və Birgə Müəssisə tərəfdaşlarına tətbiq olunur. Şirkət bu standartları təmin edə bilmədikdə, bu cür vasitəçilərə, subpodratçılara və ya Birgə Müəssisə tərəfdaşlarına tətbiq olunan oxşar və ya daha ciddi tələblərə tam əməl olunana qədər, onlarla heç bir biznes əlaqəsi qurmayacaq.

Ən yüksək obyektivlik standartlarını qoruyub saxlamaq məqsədilə Məsul Qurum aşağıdakıları təmin etməlidir:

- "Qarşı-tərəflərin yoxlanılması haqqında" standart sənədində qeyd olunduğu kimi, vasitəçiləri, nümayəndələri və subpodratçıları cəlb etməzdən əvvəl, onların obyektivliyi və nüfuzları barədə məlumatları tam nəzərdən keçirir. Şirkət vasitəçilər, nümayəndələr və subpodratçılarla kommersiya əlaqəsi qurmazdan əvvəl onların obyektivlik qeydlərini yoxlamaq üçün ilkin araşdırma aparmalıdır;
- "Satınalmaların Təşkili və İdarəolunması üzrə normativ sənədlər toplusunda" təsbit olunduğu kimi, satınalma prosesi tam sənədləşdirilir, və vasitəçilərin, nümayəndələrin və subpodratçıların seçimi Şirkətin onlarla münasibətlərini seçən və ya idarə edən şəxsdən başqa, digər şəxs tərəfindən yekun təsdiq edilməlidir;
- "Korrupsiya ilə mübarizə üzrə Siyasətdə" təsbit olunduğu kimi, vasitəçilər, nümayəndələr və subpodratçılar hazırkı Siyasət barədə tam məlumatlandırılmalı və ona əməl etmək barədə yazılı şəkildə rəsmi öhdəlik götürməlidirlər;
- Razılaşdırılmış xidmət haqqı və komissiyalar mütənasib və göstərilmiş qanuni xidmətlər üzrə əsaslı olmalıdır.

Razılaşmalar imzalandıqdan sonra Şirkət Siyasətin pozulub-pozulmadığını müəyyən etmək məqsədilə vasitəçilər, nümayəndələr və subpodratçılarla münasibətlərinə nəzarəti davam etdirməlidir. Vasitəçilər, nümayəndələr və subpodratçılar hazırkı Siyasətə əməl edə bilmədikdə, onlarla münasibətlərə xitam vermək üçün razılaşmalar müvafiq müddəaları əhatə etməlidir. Şirkət vasitəçilər, nümayəndələr və subpodratçıların Siyasətə əməl etmələrinə nəzarət üçün korporativ və/yaxud "forenzik" araşdırmaları apara bilər.

**4.5.Birgə Müəssisə tərəfdaşları**

Şirkət tərəfdaşlarının obyektivlik qeydlərin sənədləşdirilməsi və diqqətlə araşdırılması zərurəti Birgə Müəssisələrin qurulması və idarə edilməsi prosesinə bərabər qaydada tətbiq olunur. Şirkət Birgə Müəssisələrin yüksək obyektivlik tələblərinə əməl etməsinə nəzarət etməli və bunu təmin etməlidir. Şirkət nəzarət səhm paketinə malik olduqda, o, Birgə Müəssisə tərəfindən Şirkətin müvafiq siyasətlərində müəyyən edilmiş rüşvətxorluq və korrupsiya konsepsiyaları və yanaşmalarının yerinə yetirilməsi və/ və ya oxşar müddəaların qəbul edilməsində fəal iştirak etməlidir.

**4.6.Təchizatçılar və podratçılar**

Şirkət təchizatçılar və podratçıların seçimi üzrə satınalma prosedurunun açıq, ədalətli, şəffaf və artıq qüvvədə olan SOCAR-ın Satınalmaların Təşkili və İdarəolunması üzrə normativ sənədlər toplusuna və digər daxili normativ sənədlərə  və Tətbiq olunan qanunvericiliyə uyğun olmasını təmin etməlidir. Podratçıların seçimi şəxsi tövsiyələrə deyil, peşəkar meyarların qiymətləndirilməsinə əsaslanacaq. Şirkət Siyasəti öz təchizatçıları və podratçılarına çatdırmalı və onların Şirkət adından çalışarkən siyasətdə müəyyən edilən prinsiplərə əməl etmələrini gözləməlidir. Həmin prinsiplər müvafiq müqavilələrə daxil edildikdən sonra pozulduqda, Şirkət müqaviləyə birtərəfli qaydada xitam vermək hüququnu özündə saxlayır.

## 5. KONFİDENSİALLIQ MÜDDƏALARI

### 5.1.Konfidensiallığın qorunmasına aid ümumi müddəalar

Şirkət bu Siyasətlə kommersiya sirrini və ya vacibliyin əhəmiyyətli səviyyəsi kimi təsnif edilən digər məlumatı konfidensiallıq (gizlilik) standartlarına daxil edir. Şirkət Azərbaycan Respublikasın müvafiq qanunvericiliyinə uyğun olaraq, öz kommersiya və iqtisadi maraqlarını qoruyarkən kommersiya sirri və digər kommersiya əhəmiyyətli məlumata çıxışı saxlamaq, qorumaq və məhdudlaşdırmaq hüququnu özündə saxlayır.

Konfidensial məlumat aşağıdakıları əhatə edən lakin yalnız bunlarla məhdudlaşmayan hər hansı kommersiya və ya texniki məlumatları bildirir:

- Səhmlərin alqı/satqısı, Törəmə müəssisələr, Birgə müəssisələrin formalaşdırılması, birləşmə, sektor tərəfdaşları ilə əməkdaşlığa dair məlumat;
- Yeni məhsul dizaynı, biznes strategiyası, proqram kodu ilə bağlı məlumat;
- Şirkət İşçilərinin şəxsi/ailə həyatına dair məlumat;
- Şirkətin biznes nou-hauları, müəllif hüququ, məlumat bazası hüququ və patent hüququ kimi əqli mülkiyyət hüquqları ilə bağlı məlumat;
- Şirkətin xüsusi əhəmiyyət kəsb edən əməliyyatlarla bağlı məlumat;
- “Qiymətli kağızlar bazarı haqqında” Qanunda və digər aidiyyəti normativ-hüquqi aktlarda, habelə birja qaydaları üzrə konfidensial kimi qeyd edilən məlumat;
- Açıqlandığı təqdirdə Şirkətə təhlükə törədə bilən hər hansı daxili məlumat;
- Tətbiq olunan qanunvericiliyə uyğun olaraq konfidensial və ya kommersiya sirri kimi təsnif edilən hər hansı digər məlumat.

Bu cür məlumatlar aşağıdakı formada ola bilər:

- Kağız üzərində;
- Elektron və rəqəmsal (digital) variantda;
- Şifahi (Müzakirələr zamanı ötürülən).

Aşağıdakı hallarda məlumatlar qanunvericiliyə uyğun olaraq konfidensial hesab edilər bilər, əgər:

- Bu, erkən açıqlandığı zaman - maliyyə auditi başa çatanadək, auditin səmərəliliyini təhlükə altına salacaq və ya sala bilər;
- Bu, erkən açıqlandığı zaman - qərar qəbul edilənədək, fikirlərə, müzakirələrə və məsləhətləşmə prosesinə təsir edə bilər;
- Bu, erkən açıqlandığı zaman - iqtisadi, pul, kredit və ya maliyyə fəaliyyəti ilə bağlı konkret əməliyyatların başa çatanadək, dövlət orqanlarının iqtisadi, pul, kredit və ya maliyyə siyasətinin həyata keçirilməsinə mənfi təsir göstərə bilər;

- bu, məhkəmə qərarı qəbul edilənədək ədalət mühakiməsinə mane olacaq və ya mane ola bilər.

Konfidensial məlumatın açıqlanmasının itkilərə səbəb olduğunu, Şirkətə ziyan vurduğunu və / və ya onun nüfuzuna xələl gətirə bildiyini nəzərə alaraq, Şirkət aşağıdakı qaydaları qəbul edir:

- Şirkət öz İT sistemlərinə məlumatların gizliliyi mexanizmlərinin qabaqcıl istiqamətlərini inteqrasiya edir;
- Şirkətin əmək müqavilələrinə müvafiq konfidensiallıq müddəaları daxil edilir ki, bu da İşçiləri konfidensial məlumatın ətraflı siyahısı ilə, eləcə də onlara əməl etmə prosedurları ilə tanış edir;
- Şirkət qarşı-tərəfdən aşkar ilkin təsdiq tələb etməklə öz biznes tərəfdaşları ilə razılaşmalara (konfidensiallıq razılaşmaları) müvafiq konfidensiallıq bəndlərini daxil etməklə konfidensial məlumatı alanlar üçün aldıqları məlumatla ehtiyatla davranmağa dair öhdəlik yaradır;
- Şirkət öz fəaliyyətinin gedişi zamanı daim öz konfidensial məlumat dairəsini yeniləyən mexanizmi qəbul edir və ona əməl edir.

Şirkət daxilində əsas proses sahibləri olan konfidensial məlumat alanlar, konfidensial məlumata çıxışı olan kənar podratçılar, o cümlədən Şirkətə aid konfidensial məlumatı bilmək istəyən KİV (kütləvi-informasiya vasitələri) daxil olmaqla istənilən digər Üçüncü Tərəflər, açıqlanmış məlumatla bağlı ehtiyatlı davranmalı və aşağıdakı üsullarla ona münasib diqqət göstərməlidir:

- Məlumat sahibi tərəfindən tələb edildikdə hər zaman konfidensial məlumatı təhlükəsiz saxlamaq;
- Sahibinin icazəsi olmadan məlumatları heç kimə açıqlamamaq;
- Əməliyyatlar zamanı istifadə edilən məlumatın mənbələrini konfidensial kimi qeyd etmək;
- Konfidensiallığın hər hansı pozulması/potensial pozulması haqqında sahibi xəbərdar etmək və pozulmanı aradan qaldırmaq üçün lazımi yardım etmək.

Şirkətə xidmət göstərərkən və tamamlayarkən konfidensial məlumat əldə edənlərdən aşağıdakı vəzifələri yerinə yetirmək tələb olunur:

- Tərəflər arasında razılaşdırılmış qaydada bütün açıqlanmış məlumat paketini Şirkətə qaytarmaq;
- Fiziki və / və ya elektron şəkildə saxlanılan bütün əldə edilmiş məlumatın mənbələrini məhv etmək;
- Konfidensial məlumatın ictimaiyyətə açıqlanmasının qarşısının alınması üçün əlavə addımlar atmaq.

## 5.2. Konfidensial məlumatların işlənməsində beynəlxalq təcrübələr

Konfidensial məlumatdan qanun, qayda və ya peşəkar standartların tələblərinə uyğun olaraq istifadəsi, müqavilədən yaranmış razılaşmaları üstələməsi üçün nəzərə alına biləcək hüquqverici əsasdır. Şirkətin İşçiləri konfidensial məlumatlardan lazımi qaydada istifadə ilə bağlı məsələlər üzrə müvafiq struktur bölmə ilə məsləhətləşmələr aparmalıdırlar. İcazəsiz istifadə nümunələrinə razılıq olmadan konfidensial məlumatların açıqlanması (onları açıqlamaq üçün əsas hüquqi tələblərdən üstün olmadıqda), belə məlumatı bilmək ehtiyacı olmayan hər hansı bir şəxsə konfidensial məlumatların açıqlanması (ətraflı məlumat üçün aşağıda göstərilən "bilmək zərurəti" prinsipi yanaşmasına müraciət etmək lazımdır), aidiyyəti olmayan biznes məqsədləri üçün və ya fərdi fayda və yaxud üçüncü tərəfin faydası üçün məlumatlardan istifadə (məsələn, insayder ticarəti) daxildir.

Şirkətin İşçiləri konfidensial məlumatları açıqlamırlar, yalnız qüvvədə olan qanunvericiliklə və Şirkət tərəfindən müəyyən edilmiş qaydalar, siyasətə və prosedurlara uyğun olaraq, belə məlumatı bilmək ehtiyacı olanlara məlumat açıqlanma halları istisna olmaqla. Şirkətin İşçiləri səhvən açıqlamanın qarşısını almaq üçün hər zaman konfidensiallığı qorumaq üçün tədbirlər görürlər.

Konfidensial məlumatların təsadüfən və ya icazəsiz açıqlanması, məlumat alanlar Şirkətin digər əməkdaşları və ya ailə üzvləri olduğu halda belə konfidensiallığın pozulmasıdır.

Əgər konfidensial məlumatların açıqlanması təklif olunursa, aidiyyəti olan İşçi təklif edilən açıqlanmaya ilkin baxış keçirib, açıqlanma üçün münasib tələbin olub-olmamasını qiymətləndirir. Konfidensial məlumatın açıqlanıb-açıqlanmamasını müəyyən etmək üçün meyarlara adətən aşağıdakılar daxildir:

- məlumatların həssaslığı;
- açıqlama ehtiyacı (o cümlədən təklif edilmiş məlumat alan tərəfin bu məlumatı bilmək ehtiyacı);
- Şirkətin tərəfdaşının xüsusi razılığı;
- təklif edilmiş məlumat alan tərəfin xarici tərəf və ya Şirkətin digər əməkdaşı olub-olmaması;
- qanun, qayda və ya professional standartların əsas tələbi.

## 5.3.Məlumatı əldə etmək zərurəti

"Bilmək zərurəti" ən əsas informasiya təhlükəsizliyi prinsiplərindən biridir. Ümumiyyətlə, bu prinsip, aşağıdakı kimi müəyyən edilə bilər:

"Məlumat sahibi tərəfindən, perspektivdə məlumat alan bir şəxsin öz vəzifələrini yerinə yetirmək üçün mühüm olan tapşırıq və ya xidmətlərinin icrası məqsədilə məlumatlara çıxış, bilmək və ya sahib olmaq tələbinin olmasının müəyyən edilməsi".

Şirkətin konfidensial məlumatını bilmək, ona sahib olmaq və ya ona çıxış əldə etmək imkanları fərdi

şəxsin sadəcə Şirkət daxilində vəzifəsindən asılı olaraq təmin edilmir.

Şirkət, konfidensial məlumatlarına dair “bilmək zərurəti" prinsipini müəyyən etmək məsuliyyəti daşıyır. Bir ümumi prinsip kimi, Şirkət öz İşçilərinə konfidensial məlumata çıxışı məhdudlaşdırır.

İşçilərə aşağıdakı şərtlərlə konfidensial məlumata çıxış verilə bilər: (i) onlara Şirkət tərəfindən konfidensial məlumata çıxış əldə etmək səlahiyyəti verilir; (ii) onların bilmək zərurəti təsdiq edilmişdir. Bu o deməkdir ki, Şirkət yalnız iki şərt yerinə yetirilərsə, öz İşçisini konfidensial məlumatla təmin edəcəkdir:
Birincisi - İşçinin müvafiq rəsmiləşdirilməsi və çıxışı vardır;
İkincisi - İşçi öz iş funksiyalarını yerinə yetirmək üçün məlumatı bilməlidir.

Şirkətin “bilmək zərurəti” prinsipinin əsas meyarları aşağıdakılardır:

- Bütün İşçilər konfidensial məlumat sorğularını onları həqiqi bilmək zərurəti ilə məhdudlaşdıracaqlar. İşçilərdən belə məlumatları bilmək səbəbinin əsaslandırılması gözlənilə bilər;
- Bütün İşçilər konfidensial məlumatı, söhbətin mövzusunu bilmək zərurəti olmayan digər şəxslərin eşidə biləcəyi yerlərdə müzakirə etməkdən çəkinməlidilər;
- İşçidən konfidensial məlumat soruşulduqda, İşçi əmin olmalıdır ki, bunu soruşanın həmin məlumatı bilmək səlahiyyəti və zərurəti vardır. İşçilər təkrar olaraq bilmək zərurəti prinsipini pozan əməkdaşlar barədə müvafiq struktur bölməyə məruzə etməyə borcludur.

### 5.4."Çin səddi" prinsipi

“Çin səddi” Şirkət tərəfindən qəbul edilən daxili tədbirdir və təyinatı bir müştəri və ya tərəfdaş üçün xidmət göstərən bəzi İşçilərin əldə etdikləri məlumatların, həmin məlumatların Şirkətin digər müştərisi və ya tərəfdaşı üçün olduqca əhəmiyyətli olduğu halda sonuncu ilə işləyən Şirkətin digər İşçisinə ötürülməməsini təmin etməkdir. Əsas məqsəd Şirkətin müştəriləri/tərəfdaşlarının konfidensiallığını qorumaqdır. Ümumiyyətlə, informasiya bütövlüyü “Çin səddi” tədbirinin əsas istiqaməti hesab edilə bilməz, lakin təsnif edilən məlumatlara çıxış imkanı belə istiqamət sayıla bilər.

Şirkət buna nail olmaq üçün münasib olan müxtəlif prosedurlardan istifadə edəcək: müvafiq sənədlər üçün kilidli otaqlar, konfidensiallığın təmin edilməsi üzrə müxtəlif müştərilər / tərəfdaşlar üçün çalışan ayrıca İşçi heyətləri, binanın müəyyən hissələrinə məhdud çıxış və həmin ərazilərə daxil olanların monitorinqi və konfidensiallığın saxlanması üzrə yazılı qaydalar.

Müştərilərin / tərəfdaşların konfidensiallığının saxlanılması Şirkət üçün vacibdir. Şirkət bir çox ölkələrdə və müxtəlif bazarlarda fəaliyyət göstərdiyindən, Şirkətin müştərilərinin və tərəfdaşların öz işlərinin konfidensiallığına etibar etməsi vacibdir və bununla onlar şirkətin “Çin səddi” prinsipinə etibar etməlidirlər.

Şirkət iki müştərinin/tərəfdaşlarının işlərinin xüsusilə ayrılması üçün "Çin səddinin" tətbiq edilməsi zərurəti yarandıqda aşağıdakı tədbirlərin birindən və ya bir neçəsindən istifadə etməlidir:

- Hər bir müştəri/tərəfdaş üçün işləyən Şirkətin İşçilərinin siyahısını tərtib etmək və müştəri/tərəfdaş üçün işləyən heç kimin digər müştəri/tərəfdaşla bağlı konfidensial məlumatlara malik olmamasını təmin etmək;
- Şirkət daxilində İşçilərin iki (və ya daha çox) heyətinin bütün üzvlərinin müştəri/tərəfdaş konfidensiallığına dair qaydaları bildiyini təmin etmək. Yazılı qaydalar müəyyən edilə bilər;
- Heyətlər fiziki olaraq müxtəlif binalara ayrılmalı və ya məhdud çıxışı olan binanın müxtəlif yerlərində yerləşdirilməlidir. İşçilərin hərəkətlərini qeydə almaq məqsədi ilə tədbirlər, məsələn, məhdud girişli sahəyə təhlükəsizlik parolu ilə daxil olması tətbiq edilə bilər;
- Həssas və ya konfidensial məlumat fiziki olaraq ayrı və təhlükəsiz yerdə saxlamaq.

## 6. MARAQLARIN TOQQUŞMASININ HƏLLİ

### 6.1. Həll mexanizmləri

Şəffaflığı artırmaq və Maraqların Toqquşması məsələləri ilə mübarizə aparmaq üçün Şirkət, “Korrupsiya ilə mübarizə üzrə Siyasət”, “Biznes Etikası Məcəlləsi”, “Pozuntular, o cümlədən SOCAR-ın etik normaları və korrupsiyaya qarşı tələblərinin pozulması halları haqqında məlumatlandırma sistemi” standartlarında təsbit olunduğu kimi “qaynar xətt” məruzə etmə mexanizmini tətbiq etmişdir. "Qaynar xətt" aşağıdakı tədbirlərlə Maraqların Toqquşmasının qarşısının alınması və aradan qaldırılmasına kömək etmək məqsədini daşıyır:

1) Maraqların Toqquşması məsələsinə dair tez və dərhal məruzənin (müraciətin) edilməsi;
2) Məlumat vermə prosedurlarının sadələşdirilməsi;
3) Maraqların Toqquşması ilə məşğul olan rəhbərliyə və Məsul Quruma "xəbərdarlıq siqnalının" tez ötürülməsi.

“Qaynar xətt” Şirkətin Birgə Müəssisə və ya Birlik Tərəfdaşı kimi çıxış etdiyi layihələrdə faydalıdır, belə ki, o, layihənin hər hansı bir tərəfin pozuntuya yol verməsinə sürətli və dərhal reaksiya vermək şansını artırır.

“Biznes Etikası Məcəlləsində” və “SOCAR-ın korrupsiya fəaliyyətinə müqavimət sisteminin təşkilati-hüquqi strukturu” standartlarında qeyd olunduğu kimi, potensial və ya mövcud Maraqların Toqquşması olan İşçinin birbaşa rəhbəri Maraqların Toqquşmasına cavab olaraq risklərin həlli məqsədilə təsirin azaldılmasına dair hansı tədbirin tələb olunduğunu müəyyən edəcək. İşin xüsusiyyətindən asılı olaraq, təsirin azaldılması tədbirləri qiymətləndirilməsi keçirilən iştirakdan imtinanı və ya xüsusi şərtlərdən asılı olaraq “azaldılmış cəlb edilməni” əhatə edə bilər.

İştirakdan imtina aşağıdakı hallarda tələb oluna bilər:

- İşçinin (və ya yaxın qohumun) əhəmiyyətli dərəcədə cəlb olunduğu/oluna bildiyi şirkətin işi ilə bağlı vəziyyət;
- İşçinin (və ya yaxın qohumun) işlədiyi və yaxud əhəmiyyətli qərar vermə, maliyyə, təsdiq etmə məsuliyyəti və ya maliyyə payı və yaxud şəxsi təsiri olduğu xüsusi bölmənin qiymətləndirilməsi ilə bağlı vəziyyət; və
- Şirkətin İşçisinin (və ya yaxın qohumunun) gələcək məşğulluğu üçün əhəmiyyətli ehtimalla bağlı vəziyyət.

“Azaldılmış cəlbetmə” şirkətin biznesi ilə əlaqədar elə vəziyyətlərdə münasib ola bilər ki, işçi (və ya yaxın qohumu) əhəmiyyətli dərəcədə cəlb olunmadığı, lakin buna baxmayaraq digər şəxsləri obyektivlik və ya qərəzsizliyə dair suallar verməyə sövq edən iştiraka, təsirə və ya dərin biliyə malik olsun.

İştirakdan imtina edən Şirkətin İşçiləri onların imtina etdiyi müvafiq məsələnin hazırlanması, baxılması və ya təsdiq edilməsində heç bir rol oynamayacaqlar. Lakin onların iştirakı münasibətləri gərginləşdirmirsə və ya məsələ üzrə bu cür təsirin olmasının qavranmasına və ya görünüşün yaranmasına səbəb olmursa, onlar məsələ ilə bağlı fəaliyyətlərə digər bir iştirakçı kimi cəlb edilə bilərlər. İştirak etməkdən imtina edən İşçilər öz idarəçilik məsuliyyətini formal olaraq başqa menecerə (idarəçilik məsuliyyəti olana) həvalə edəcəklər; onlar statusa nəzarət etmək üçün müntəzəm olaraq məsələ ilə bağlı proses addımlarının surətinin saxlanılmasını (sənədləşdirilməsini) davam edə bilər.
"Azaldılmış cəlbetmə" təsirin azaldılması tədbiri kimi razılaşdırıldıqda, İşçilərdən qeyd edilən şərtlərə dəqiq əməl etmələri gözlənilir. Əgər Maraqların Toqquşması vəziyyəti dəyişirsə və ya əvvəl razılaşdırılmış təlimatın bəzi elementlərini aydınlaşdırmaq məqsədi ilə əlavə müzakirə tələb olunarsa, İşçilərdən tələb olunduğu halda, birbaşa müvafiq struktur bölmə ilə təmasda olmaları gözlənilir.

### 6.2. Siyasətə əməl etməməyə görə məsuliyyət

Həyata keçirmə və əməl etməyə dair korporativ məsuliyyət:

Şirkət düzgünlük, açıqlıq, qarşılıqlı hörmət, etika və bu Siyasətdə irəli sürülən dəyərlərin, mühitin yaradılmasına və saxlanmasına dair Şirkətin strategiyasını həyata keçirmək məqsədilə fəaliyyətin təşkili üçün məsuliyyət daşıyır.

İşçilərin fərdi məsuliyyəti:

Öz iş vəzifələrinin icrası zamanı Şirkətin bütün İşçiləri bu Siyasətdə müəyyən edilən şaquli bütövlük standartlarına əməl etməlidirlər. Bunlara əməl edilməməsi Tətbiq olunan qanunvericilik və Şirkətin daxili qaydalarına uyğun olaraq inzibati, intizam, mülki və cinayət məsuliyyəti ilə nəticələnə bilər.